# Sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları gücləndirilir

Mayın 10-da Milli Məclisin Elm və təhsil komitəsinin iclası keçirilib.

İclası açan Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bildirib ki, gündəliyə üçüncü oxunuşda olan iki qanun layihəsi - "Ümumi təhsil haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi və "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" və "Təhsil haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi daxil edilib.

Gündəliyin müzakirəsinə keçməzdən əvvəl komitə sədri Bəxtiyar Əliyev Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 99-cu ildönümünün xalqımız tərəfindən dərin hörmət və ehtiramla anılmasından söz açıb. Komitə sədri bütün həyatını Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünün bərpasına, xalqının rifahı və xoşbəxtliyinə həsr edən Ulu Öndərin işıqlı xatirəsinin azad Şuşada və digər azad olunmuş torpaqlarımızda da qeyd olunmasının qürurunu və sevincini yaşadığımızı vurğulayıb. Bu gün Ulu Öndərin də, torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş şəhidlərin də ruhunun şad olduğunu bildirən komitə sədri Prezident İlham Əliyevin Azərbaycanı Heydər Əliyevin müqəddəs amalları ətrafında sıx birləşdirərək yeni zirvələrə doğru daşıdığını vurğulayıb.

Sonra gündəlikdəki məsələləri təqdim edən Bəxtiyar Əliyev qanun layihələri və onların 1-ci və 2-ci oxunuşları barədə məlumat verib. Komitə sədri deputatların qanun layihələrini dəstəklədiklərini qeyd edərək, sənədlərlə bağlı aparılan müzakirələrdə qaldırılan məsələlərə aydınlıq gətirib. Bəxtiyar Əliyev sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlb edilməsi ilə bağlı görülən tədbirlərdən, yerinə yetirilən dövlət proqramlarından söz açıb, Heydər Əliyev Fondu tərəfindən sağlamlıq imkanları məhdud uşaqların təhsil hüququnun təmini ilə bağlı həyata keçirilən layihələri diqqətə çatdırıb.

Komitə sədri bildirib ki, bütövlükdə təklif edilən dəyişikliklərin əsas məqsədi, sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühitin dövlət təminatlarını yaratmaqdan ibarətdir.

Qanun layihələrinin müzakirəsində Elm və təhsil komitəsinin üzvləri İsa Həbibbəyli, Ceyhun Məmmədov, Etibar Əliyev, Tamam Cəfərova çıxış ediblər. Müzakirələrin sonunda hər iki qanun layihəsi üçüncü oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 11 may.- S.6.